sunna.az

Səlim ibn Səd
Ət-Tavil

# Müsəlman üçün mühüm olan 10 məsələ

Tərcümə:
Vüqar Qurbanov

بسم الله الرحمن الرحيم

# Müsəlman üçün mühüm olan 10 məsələ

Tərcümə etdi:
Vüqar Qurbanov

Redaktə etdi: Xumar Ərşadlı

# Müsəlman üçün mühüm olan 10 məsələ

Aləmlərin Rəbbi olan Allaha həmd olsun. Özündən sonra heç bir peyğəmbər olmayan Muhəmmədə, onun ailəsinə, səhabələrinə Allahın salavatı və salamı olsun.

Qeyd edəcəyim 10 məsələni öyrənməsi və bacardığı qədər digərlərinə öyrətməsi hər bir müsəlmana lazımdır.
Mən bu 10 məsələni cahilləri öytətmək, qafilləri oyatmaq və bilənlərə xatırlatma etmək üçün toplamışam.
Bu 10 məsələni öyrənməyə həm kiçiklərin, həm də böyüklərin ehtiyacı var. Allahdan istəyirəm ki, bu məqaləni həm yazan, həm də oxuyanlar üçün faydalı etsin.

Yazdı: Allahın əfvinə möhtac bəndə Səlim ibn Səd ət-Təvil

Allah onu, valideyinlərini və müsəlmanları bağışlasın.

Tarix: 20.12.2017.

# Birinci məsələ

## Allahın varlığına iman gətirmək

Hər bir mükəlləf insanın Allahın varlığına iman gətirməsi vacibdir. Allahın varlığı qəbul olunan bir məsələdir. Buna Allahın Kitabı, Peyğəmbərin ﷺ sünnəsi, alimlərin icması, ağıl, fitrət və hissiyyat dəlalət edir. Bütün şəriətlər bunun üzərində icma etmişdir.

Şeyx Muhammməd ibn Saleh əl-Useymin (Allah ona rəhmət eləsin) demişdir: **“Bütün şəriətlər Xaliqə, Onun kamil elminə, hikmətinə və rəhmətinə dəlalət edir. Çünki labüddür ki, bu şəriətlərin şəriət təyin edəni olsun. Bu şəriətiləri təyin edən isə Allahdır”.**[1]

Hissi dəlilə gəldikdə isə, bu, Allahın öz bəndələrinə cavab verməsidir. Allah mövcud olmasaydı, bəndələrinə cavab verməzdi. Necə ki, Allah buyurur:

“**O sizə istədiyiniz hər şeydən verdi**”.[2]

Ona görə də elə bir insan yoxdur ki, Allahın onun duasına cavab verməsini xatırlamasın, bunu hiss etməsin. Hətta Allah onun dili ilə etdiyi duanı qəbul etməyibsə, öz halının dili ilə etdiyi duasını qəbul etmişdir.

Həmçinin sağlam fitrət də Allahın varlığına dəlalət edir.

Allah-Taala buyurur:“**Sən batildən haqqa tapınaraq üzünü Allahın fitri olaraq insanlara verdiyi dinə (İslama) tərəf tut**”.[3]

Əksər hallarda Allahın varlığını yalnız təkəbbürlü kəslər inkar edir. Necə ki, Allah-Taala buyurur: “**Buna (möcüzələrimizə) yəqinliklə inandıqları halda, haqsızcasına və təkəbbür üzündən onları inkar etdilər**”.[4]

İndiki dövrdə çox geniş yayılmış dinsizlik Allahın şəriətinə və dininə qarşı küfrdür.

---

1. “Şərh əs-səfəriniyyə”, səh.44.
2. “İbrahim” surəsi, 34-cü ayə.
3. “Rum” surəsi, 30-cu ayə.
4. “Nəml” surəsi, 14-cü ayə.

# İkinci məsələ

## Allahın rübubiyyətinə iman gətirmək

Bu o deməkdir ki, mükəlləf olan insan Allahın "**ər-Rəbb**", hər şeyin sahibi olan "**əl-Məlik**" və bütün işləri idarə edən "**əl-Müdəbbir**" olmasına iman gətirməlidir. Rübubiyyət "**ər-Rəbb**" ismindən alınmışdır. Mənası odur ki, Allah-Taala Öz feillərində təkdir. O, hər şeyin Xaliqidir.

Allah buyurur: "**Allah hər şeyin Xaliqidir**".[1]

O, hər şeyin, hər bir mülkün sahibidir:

"**Göylərdə və yerdə olanların hamısı Allahı təsbih edirlər. Mülk Onundur, həmd Ona məxsusdur. O, hər şeyə qadirdir**".[2]

Kainatda hər şeyi şəriksiz idarə edən odur. "**Doğrudan da, Rəbbiniz göyləri və yeri altı gündə yaradan, sonra da Ərşin üzərində ucalan Allahdır. O, gündüzü sürətlə təqib edən gecə ilə örtüb bürüyür. Günəşi, ayı və ulduzları Öz əmrinə tabe edən də Odur. Şübhəsiz ki, yaratmaq da, əmr etmək də Ona məxsusdur**".[3]

Allahın təkcə "**ər-Rəbb**", hər şeyi yaradan "**əl-Məlik**" (mülk sahib), kainatta bütün işləri idarə edən "**əl-Müdəbbir**" olmasına iman gətirmək kifayət deyil. Bunlara iman gətirmək vacib olsa da, kim bununla kifayətlənərsə, imanı səhih olmaz, kamil tövhidlə muvahhid olmaz.

Çünki müşriklər də Allahın "**ər-Rəbb**", "**əl-Xaliq**" olmasını iqrar edirdilər. Necə ki, Allah-Taala buyurur:

"**Əgər onlardan özlərini kimin yaratdığını soruşsan, mütləq: "Allah!" deyərlər. Elə isə (haqdan) necə döndərilirlər?!**"[4]

---

1. "Zumər" surəsi, 62-ci ayə.
2. "Təğabun" surəsi, 1-ci ayə.
3. "Əraf" surəsi, 54.
4. "Zuxruf" surəsi, 87.

Başqa bir ayədə Allah belə buyurur:

**“Əgər sən onlardan: “Göyləri və yeri yaradan, günəşi və ayı ram edən kimdir?” deyə soruşsan, onlar mütləq: “Allahdır!” deyəcəklər. Onlar necə də (haqdan) döndərilirlər!”** [5]

**De: “Yeddi göyün Rəbbi və əzəmətli Ərşin Rəbbi kimdir?” Onlar: “Allahdır!” deyəcəklər. De: “Bəs qorxmursunuz?”** [6]

Buna baxmayaraq Peyğəmbər ﷺ onlarla vuruşdu, onları müsəlman və muvahhidlərdən hesab etmədi. Deməli mücərrəd olaraq sadəcə Rübubiyyət tövhidinə iman gətirmək kifayət etmir. Bununla yanaşı Üluhiyyət tövhidinə də iman gətirmək lazımdır. Şeyxulislam İbn Teymiyyə Rübubiyyət tövhidi haqqında belə demişdir: **“Bu tövhid vacib olan tövhiddəndir, lakin bununla vacib hasil olmur”.** [7]

Yəni Rübubiyyət tövhidinə iman gətirmək vacibdir, lakin bununla vacib tamamlanmır. O baxımdan ki, vacib olan Allahın varlığına, Rübubiyyətinə, Üluhiyyətinə, İsim və Sifətlərinə iman gətirməklə tamamlanır.

5. “Ənkəbut” surəsi, 61-ci ayə.
6. “Muminun” surəsi, 86-87-ci ayələr.
7. “İqtidəu-s-sirati-l-mustəqim”, 2/387.

# Üçüncü məsələ

## Uluhiyyət tövhidinə iman gətirmək

Bu o deməkdir ki, sən etiqad etməlisən ki, Allah ibadətə layiqdir. Haqq ilah odur. İstər peyğəmbərlər, mələklər, salehlər, günəş və istərsə də başqa məxluqlar olsun, Allahdan başqa seçilən və ibadət olunan digər ilahlar isə batil ilahlardır. Allahdan başqa heç kim ibadətə layiq deyil.

Bu, "**Lə iləhə illəllah**" kəlməsinin mənasıdır. Yəni Allahdan başqa haqq məbud yoxdur. Lakin müsəlmanın təkcə bunu etiqad etməsi də kifayət deyil. Bununla yanaşı ibadət də olmalıdır. Necə ki, 4-cü məsələdə bu haqda bəhs olunacaq.

# Dördüncü məsələ

## Allaha ibadət etmək

Hər bir müsəlmanın Allaha ibadət etməsi vacibdir. Əgər bir kəs desə ki, "Mən iqrar edirəm ki, Allah ibadətə layiqdir və buna əminəm", lakin ibadət etməsə, bu iqrarın ona faydası yoxdur. Çünki Allah-Taala üluhiyyəti Özünə isbat edib və tək Özünə ibadət olunmasını əmr edib.

Allah belə deyir: "**Allaha ibadət edin**".[1]

Başqa bir ayədə isə, belə deyir: "**Xeyr, sən yalnız Allaha ibadət et və şükür edənlərdən ol!**"[2]

1. "Nisa" surəsi, 36-cı ayə.
2. "Zumər" surəsi, 66-cı ayə.

# Beşinci məsələ

## Heç kəsi Allaha şərik qoşmamaq

Hər Allaha ibadət edən müsəlman, mömin və muvahhid olmaz. Müşrik insan Allaha da, Allahla yanaşı başqasına da ibadət edir. Həm Allaha, həm də başqasına ibadət edən Allaha ibadət etməmiş kimidir. Çünki əməl nə qədər əzəmətli və çox olursa olsun, şirk əməli puç edir.

Necə ki, Allah-Taala buyurub:

**“Sənə və səndən əvvəlkilərə belə vəhy olunmuşdur: “Əgər (Allaha) şərik qoşsan, əməlin puç olacaq və mütləq ziyana uğrayanlardan olacaqsan”.**[1]

Allahın “**Sənə və səndən əvvəlkilərə belə vəhy olunmuşdur**” deməsi o deməkdir ki, yəni “ey Allahın Rəsulu, sən və rəsullardan olan qardaşlarına belə vəhy etmişik”.

Həmçinin Allah-Taala “Ənam” surəsində bir çox peyğəmbərləri zikr edərək belə demişdir: “**Bu, Allahın hidayətidir. Bununla O, qullarından istədiyini doğru yola yönəldir. Əgər onlar** (Allaha) **şərik qoşsaydılar, əlbəttə, etdikləri əməllər puç olardı”.**[2]

Müşriklər Allaha məsələn dua kimi bir çox ibadətlərlə ibadət edirlər.

Allah belə deyib:

**“(Dağların saldığı) kölgələr kimi dalğalar onları çulğadığı zaman onlar dini məhz Allaha məxsus edərək Ona dua edərlər. (Allah) onları xilas edib quruya çıxartdıqda isə aralarından bəziləri (küfrlə iman arasında) orta yol tutar. Bizim ayələrimizi yalnız nankor xainlər inkar edərlər”.**[3]

Dua ibadətdir. Müşriklər də Allaha dua edirlər. Hətta İblis belə Allaha dua etmişdir: **(İblis) dedi: “Ey Rəbbim! Onlar dirildiləcəkləri günə qədər mənə möhlət ver”.**[4]

---

1. “Zumər” surəsi, 65-ci ayə.
2. “Ənam” surəsi, 88-ci ayə.
3. “Loğman” surəsi, 32-ci ayə.
4. “Sad” surəsi, 79-cu ayə.

Buna baxmayaraq İblis kafir idi. Dəlil isə Alahın bu ayəsidir:

**“Bir zaman Biz mələklərə: “Adəmə (hörmət əlaməti olaraq) səcdə edin! dedikdə, İblisdən başqa hamısı səcdə etdi. O imtina edib təkəbbür göstərdi və kafirlərdən oldu”.** [5]

Bir insan da Allaha ibadətində Ona heç bir şeyi şərik qoşmayıbsa, tövhid əhli müsəlman olar. Şirk Allahla yanaşı başqasına ibadət etməkdir və ən əzəmətli günahdır. Allah buyurur:

**“Şübhəsiz ki, Allah Özünə şərik qoşulmasını əsla bağışlamaz, (amma) bundan başqa olan günahları isə istədiyi şəxsə bağışlayar. Allaha şərik qoşan şəxs böyük bir günah edərək iftira atmış olur”.** [6]

Həmçinin Allah belə deyib:

**“Allah Ona şərik qoşulmasını əsla bağışlamaz. Bundan başqa günahları isə istədiyi kimsəyə bağışlar. Allaha şərik qoşan kəs, əlbəttə ki, dərin bir azğınlığa düşmüşdür”.** [7]

Başqa bir ayədə Allah deyib:

**“Kim Allaha şərik qoşarsa, heç şübhəsiz, Allah Cənnəti ona haram edər. Onun gedəcəyi yer Cəhənnəmdir. Zalımların heç bir yardımçısı yoxdur”.** [8]

Digər bir ayədə Allah belə deyib:

**“Onlar Allahla yanaşı başqa məbuda dua etməz, Allahın haram etdiyi canı haqsız yerə qətlə yetirməz və zina etməzlər. Kim bunu (və ya bunlardan birini) edərsə cəzaya məruz qalar. Qiyamət günü onun əzabı qat-qat artırılar və onun (əzabın) içində zəlil olaraq əbədi qalar”.** [9]

Digər bir ayədə Allah-Taala belə deyib:

**“Sənə və səndən əvvəlkilərə belə vəhy olunmuşdur: “Əgər (Allaha) şərik qoşsan, əməlin puç olacaq və mütləq ziyana uğrayanlardan olacaqsan”.** [10]

---

5. “Bəqərə” surəsi, 34-cü ayə.
6. “Nisa” surəsi, 48-ci ayə.
7. “Nisa” surəsi, 116-cı ayə.
8. “Maidə” surəsi, 72-ci ayə.
9. “Furqan” surəsi, 68-69-cu ayələr.
10. “Zumər” surəsi, 65-ci ayə.

Peyğəmbər ﷺ üç dəfə: "**Sizə böyük günahlar arasında ən böyük olanından xəbər verimmi?"dedi**". Səhabələr: "Bəli, ey Allahın Rəsulu"deyib cavab verdilər. Peyğəmbər ﷺ belə dedi: "**Allaha şərik qoşmaq, valideyinlərin üzünə ağ olmaq**". (Bunu deyəndə) o, söykənmişdi. Sonra qalxıb oturdu və: "**Yalan söz danışmaqdır**" dedi. O, bunu təkrar olaraq o qədər dedi ki, biz (bir-birimizə): "Kaş ki, susaydı!" dedik".[11]

Başqa bir hədisdə Allah Rəsulu ﷺ belə deyib: "**Məhvedici yeddi günahdan çəkinin!**" (Səhabələr) soruşdular: "Nədir onlar, ey Allahın Rəsulu?" Peyğəmbər ﷺ buyurdu: "**Allaha şərik qoşmaq, sehrbazlıq, Allahın haram buyurduğu cana nahaq yerə qəsd etmək, sələm yemək, yetimin malını yemək, döyüş meydanından qaçmaq və (zinadan) xəbəri olmayan namuslu, ismətli mömin qadınları zinada ittiham etmək**".[12]

"**Məhvedici yeddi günahdan çəkinin!**" o deməkdir ki, yəni bu günahlardan uzaq durun. "Məhvedici" isə həlakedici, yəni sahibini həlak edən deməkdir.

"**Allaha şərik qoşmaq**" ən birinci və ən əzəmətli, Allaha asi olunan ən böyük günahdır. Abdullah ibn Məsud Peyğəmbərdən ﷺ soruşur: "Allah yanında ən böyük günah hansıdır?" o, ona belə cavab verir: "**Səni yaratdığı halda başqasını Ona bərabər tutmağındır**". Dedim ki, "Həqiqətən bu çox böyük bir günahdır. Sonra hansıdır?" deyə soruşdum. "**Səninlə bir süfrədə yemək yeyəcək qorxusundan onu öldürməyindir**" deyə cavab verdi. "Sonra hansıdır?" deyə soruşdum. "**Qonşunun zövcəsi ilə zina etməyindir**" deyə cavab verdi.[13] "**Səni yaratdığı halda başqasını Ona bərabər tutmağındır**" sözü ilə Peyğəmbər ﷺ şirki ən böyük günah hesab edib.

"**Səninlə bir süfrədə yemək yeyəcək qorxusundan onu öldürməyindir**" sözünə gəldikdə isə, bu, ərəblərin cahiliyyət dönəmində bu səbəblə öz övladlarını öldürməsi nəzərdə tutulur.

---

11. "Səhih əl-Buxari", 2654. "Səhih Muslim", 87.
12. "Səhih əl-Buxari", 2766.
13. "Səhih əl-Buxari", 4477. "Səhih Muslim", 86.

“**Qonşunun zövcəsi ilə zina etməyindir**” sözünə gəldikdə isə, gərəkli olan odur ki, qonşu qonşunun irzini qorusun, onu müdafiə etsin, ona yaxşılıq etsin. Qonşunun zövcəsi ilə zina edən kəs ən böyük günahı işləmiş olur.

Lakin mütləq olaraq ən böyük günah Allaha şərik qoşmaqdır.

Müsəlmana vacibdir ki, şirkin kiçiyini və böyüyünü, formalarını, növlərini və təfsilatını bilsin. Bilsin ki, o günaha düşməsin.

Bu səbəblə Huzeyfə ibn əl-Yəmən belə deyib: “İnsanlar Peyğəmbərdən ﷺ xeyir əməllər barəsində soruşanda mən xətəri mənə toxunmaq qorxusundan şər olan əməlləri soruşardım”. [14]

Şirk, qorxulası ən böyük günahlardandır. Ola bilər ki, insan bilmədiyi halda şirkə düşsün. Bu barədə bir beytdə belə deyilir:

Şəri şərdir deyə bilmədim,
Ona düşmək qorxusundan öyrəndim.
İnsanlardan kim şəri bilməsə,
Mütləqdir o şərə düşməsi.

14. “Səhih əl-Buxari”, 3606. “Səhih Muslim”, 1847.

# Altıncı məsələ

## Allahdan qeyrisinə ibadət olunan hər bir şeyi inkar etmək

Əgər bir kəs: “Mən yalnız şəriki olmayan Allaha ibadət edirəm. Lakin kim Allahdan qeyrisinə ibadət edirsə, bu onun işidir. Onun bu əməlini inkar etmirəm. Hər kəs istədiyinə ibadət edə bilər” desə cavab olaraq ona belə deyərik: Bu söz heç vaxt doğru ola bilməz. Sənə vacibdir ki, Allahdan qeyri ibadət olunan hər bir məbudun batil olduğuna etiqad edəsən. Onları inkar etmək, yalnız Allaha iman gətirmək vacibdir. Allah-Taala buyurur:

“**Hər kim tağutu inkar edib Allaha iman gətirərsə, heç vaxt qırılmayan ən möhkəm dəstəkdən yapışmış olar**”. [1]

Tağut özü razı qaldığı halda Allahdan başqa ibadət olunan hər bir şeydir. Hər bir müsəlmana vacibdir ki, tağutu inkar etməsi ilə yanaşı onun batil olduğuna və üluhiyyətə layiq olmadığına da etiqad etsin. Ayədə keçən möhkəm dəstək “**Lə ilənə illəllah**” kəlməsidir. Mücahid demişdir: “Ayədə keçən möhkəm dəstək – imandır”. Əs-Suddi demişdir: “Bu, İslamdır”. Səid ibn Cubeyr və Dahhəq demişlər ki, “Bu, lə iləhə illəllahdır”. Ənəs ibn Məlik bunun Quran, Səlim ibn Əbu Cəd bunun Allah üçün sevmək və Allah üçün nifrət etmək olduğunu söyləmişlər. İbn Kəsir belə demişdir: “Bu nəqllərin hamısı səhihdir və aralarında heç bir ziddiyyət yoxdur”.[2]

Bir hədisdə Peyğəmbər ﷺ belə deyib: “**Kim “lə iləhə illəllah” deyib Allahdan qeyri ibadət olunanları inkar edərsə, malı və qanı haram olar. Hesabı isə, Allaha qalar**”. Muhəmməd İbn Əbdülvəhhab demişdir: “Bu, lə iləhə illəllahın mənasını bildirən ən əzəmətli şeydir. Çünki bu kəlməni təkcə tələffüz etmək qanı və malı haram etmir. Nə mənasını bilməklə tələffüz etmək, nə iqrar etmək, nə tək, heç bir şəriki olmayan Allaha dua etməsi qanını və malını haram etməz. Allahdan qeyrisinə ibadət olunanları inkar etmədikcə qanı və malı haram olmaz. Əgər bunda şəkk edərsə, inkarında dayanarsa, qanı və malı haram olmaz”. [3]

1. “Bəqərə” surəsi, 256. 2. “Təfsir ibn Kəsir”, 1/648.
3. “Səhih Muslim”, 23. 4. “Tövhid” kitabı, səh.140.

# Yeddinci məsələ

## Dostluq, kömək və sevgi “lə iləhə illəllah” kəlməsinin əhli üçündür

İman əhlini özünə dost tutursan, onların öz düşmənləri üzərində üstün olacaqlarını ümid edirsən.

Allah Rəsulu ﷺ belə buyurub: “**İmanın ən möhkəm ipi Allah üçün dostluq və düşmənçilik etmək, Allah üçün sevmək və nifrət etməkdir**”. [1]

İbn Teymiyyə belə demişdir: “Möminə vacibdir ki, Allah üçün dostluq edib, Allah üçün düşmənçilik etsin. Əgər mömin qul ona zülm etsə də, onu dost bilib yardım etsin. Çünki zülm iman dostluğunu qırmır”.

Allah-Taala buyurur: “**Əgər möminlərdən iki dəstə bir-biri ilə vuruşsa, onların arasını islah edin. Əgər onlardan biri digərinə qarşı təcavüz etsə, təcavüz edənlə Allahın əmrinə qayıdanadək vuruşun. Əgər o qayıtsa, hər iki dəstənin arasını ədalətlə islah edin və ədalətli olun. Sözsüz ki, Allah ədalətli olanları sevər. Həqiqətən möminlər qardaşdırlar**”. [2]

Aralarında döyüş, təcavüz olmasına və onların öz aralarını islah etməsi əmrinə rəğmən Allah onları qardaş adlandırdı. Ona görə də mömin bu ikisi arasındakı fərqi ayırd etməlidir. Mömin sənə zülm və təcavüz etsə belə dost hesab edilməlidir. Kafir qul isə, sənə yaxşılıq etsə belə düşmən hesab edilməlidir. Çünki din tam olaraq Allaha aid olsun deyə, sevgi Allahın dost qullarına, nifrət də düşmənlərinə olsun deyə, yaxşılıq dost qullarına, alçalmaq düşmənlərinə olsun deyə, mükafat və savab dostlarına, əzab və cəza düşmənlərinə olsun deyə Allah rəsullar göndərib və kitablar nazil edib. [3]

---

1. Ət-Təbərani, “Mucəm əl-Kəbir”, 11537.
2. “Hucurat” surəsi, 9-10-cu ayələr.
3. “Məcmu əl-fətava”, 28/208-209.

# *Səkkizinci məsələ*

## Müşriklərdən uzaq olmaq və onlara buğz etmək imanın əsaslarındandır

Allah-Taala buyurur: “**Ey iman gətirənlər! Mənim düşmənimi də, öz düşməninizi də özünüzə dost tutmayın! Onlar sizə gələn haqqı inkar etdikləri halda, siz onlara mehribanlıq göstərirsiniz. Rəbbiniz olan Allaha iman gətirdiyiniz üçün onlar Peyğəmbəri və sizi (yurdunuzdan) çıxardırlar. Əgər siz Mənim yolumda və Mənim razılığımı qazanmaq uğrunda cihada çıxmısınızsa (Mənim düşmənlərimi özünüzə dost tutmayın). Siz onlara gizlincə sevgi bəsliyirsiniz (sirrinizi açıb onlara deyirsiniz). Mən sizin gizli saxladığınızı da, aşkar etdiyinizi də bilirəm. Sizlərdən kim bunu etsə, artıq haqq yoldan azmışdır!**”[1]

Sonra Allah-Taala buyurur: “**Əgər onlar sizi ələ keçirsələr, sizə düşmən kəsilər, əlləri və dilləri ilə sizə pislik edər və sizin kafir olmanızı istəyərlər**”.[2]

Ayənin məğzi Allah düşmənlərinin iman əhli ilə davranmasını bəyan edir. “Əlləri və dilləri ilə sizə pislik edər” ayəsinin mənası odur ki, onlar sizi öldürmək və döymək istəyərlər.

“Sizin kafir olmanızı istəyərlər” o deməkdir ki, yəni özləri kimi kafir olmanızı təmənni edərlər.

Bu haqda Allah başqa ayələrdə belə deyir:

“**Onlar özləri küfr etdikləri kimi, sizin də küfr edib onlarla eyni olmanızı istəyərlər. Onlar Allah yolunda hicrət etməyincə, onlardan (heç birini) özünüzə dost tutmayın. Əgər üz çevirsələr, onları harada görsəniz, öldürün. Onlardan (özünüzə) nə bir dost, nə də bir köməkçi tutun**”.[3]

---

1. “Mumtəhənə” surəsi, 1-ci ayə
2. “Mumtəhənə” surəsi, 2-ci ayə.
3. “Nisa” surəsi, 89-cu ayə.

**“Kitab əhlindən bir çoxu həqiqət özlərinə bəlli olduqdan sonra, içlərindəki həsəd üzündən sizi, imanınızdan sonra küfrə qaytarmaq istərlər. Allah Öz əmrini verincəyə qədər (onları) əfv edib bağışlayın! Həqiqətən, Allah hər şeyə qadirdir”.** [4]

**“Yoxsa onlar Allahın Öz lütfündən verdiyi şeylərə görə insanlara həsəd aparırlar?! Biz İbrahim nəslinə Kitab və hikmət bəxş etmiş və onlara böyük bir mülk vermişdik”.** [5]

Onlar bizim İslamımıza, dinimizə həsəd aparırlar. Təkcə kafir olmağımız onlara kifayət etmir. Əksinə onların milləti üzərində olmağımızı istəyirlər. Necə ki, Allah-Taala buyurur: **“Sən yəhudilərin və nəsranilərin dinlərinə tabe olmayınca, onlar səndən əsla razı qalmayacaqlar”.** [6]

Allahın kəlamı haqdır. Bizə vacib olan kafir haqqında yaxşı zəndə olmamaqdır. Çünki o, bizim onun dini üzərində olmağımızı təmənni edir. Bunu etməyə aciz qalarsa, heç olmasa bizi dinimizdən çıxarmaq istəyər ki, dinsiz olaq. Buna görə də Allah üçün dost və düşmənçilik əqidəsinə sahib olmaq labüddür. Muvahhid möminlərlə dost olub, müşrik kafirlərdən uzaqlaşmaq lazımdır.

Allah buyurur: **“İbrahim və onunla birlikdə olanlarda sizin üçün gözəl bir nümunə vardır. Onlar öz qövmünə dedilər: “Həqiqətən, biz sizdən və sizin Allahdan başqa ibadət etdiklərinizdən uzağıq. Biz sizi inkar edirik. Siz tək olan Allaha iman gətirincəyə qədər bizimlə sizin aranızda daim ədavət və nifrət olacaqdır!” Yalnız İbrahimin öz atasına: “Mən sənin üçün mütləq bağışlanma diləyəcəm. Lakin Allahdan sənə gələn əzabı dəf edə bilməyəcəm!” deməsi müstəsnadır”.** [7]

İbrahim, Allahın xəlilidir. Allah onu və onunla bərabər olan möminləri qövmlərindən və ibadət etdikləri məbudlardan bəri olduqları üçün bizlərə gözəl örnək etmişdir.

---

4. “Bəqərə” surəsi, 109-cu ayə.
5. “Nisa” surəsi, 54-cü ayə.
6. “Bəqərə” surəsi, 120-ci ayə.
7. “Mumtəhənə” surəsi, 4-cü ayə.

Əgər bir kəs söyləsə ki, İbrahim atası müşrik olduğu halda onun üçün Allahdan bağışlanma diləyəcəyinə söz vermişdir, biz bu işdə onu özümüzə örnək götürə bilərikmi? Cavab odur ki, Allah İbrahimə atası üçün bağışlanma diləməyi qadağan etmişdir. O da Allahın əmrinə boyun əymiş və atası üçün bağışlanma diləməyi tərk etmiş və ondan uzaqlaşmışdır. Allah buyurur:

“**İbrahimin öz atası üçün bağışlanma diləməsi isə yalnız ona verdiyi vədə görə idi. Atasının Allaha düşmən olduğu ona bəlli olduqdan sonra isə ondan uzaqlaşdı. Həqiqətən, İbrahim (Allaha) çox yalvaran həlim bir kimsə idi**”. [8]

Bu o demək deyil ki, biz onlara qarşı haqsız yerə həddimizi aşıb onlara zülm etməliyik. Kafirlərə qarşı zülm Peyğəmbərin ﷺ:

“**Kafir olsa belə məzlumun duasından qorx! Çünki onun duası ilə Allah arasında heç bir pərdə yoxdur**” sözünə görə haramdır.

Müşriklərdən uzaq olmaq onlarla ticarət, alış-veriş və buna bənzər əlaqələrin olmaması anlamına gəlmir. Peyğəmbər ﷺ dünyasını dəyişmiş, lakin onun zirehli paltarı bir yəhudidə girov qalmışdır. Beləliklə müşriklərdən uzaq olmaq ayrı, onlarla müamilə etmək isə tamamilə ayrı bir məsələdir.

8. “Tövbə” surəsi, 114-cü ayə.

# Doqquzuncu məsələ

## İbadət öz hava və istəklərinə görə deyil, Peyğəmbərin sünnəsi üzərində olmalıdır

Allah səni yalnız Ona ibadət etmək üçün yaratmışdır.
Allah-Taala Öz kitabında belə buyuru: “**Mən cinləri və insanları yalnız mənə ibadət etsinlər deyə yaratmışam**”. [1]

Həmçinin Allah bizə necə ibadət etməyimizi də bildirmişdir. Buna görə də öz Rəsulunu hidayət və haqq dinlə göndərmişdir. Allah belə buyurur:
“**Müşriklər istəməsə də, (İslam) dinini bütün dinlərdən üstün etmək üçün Öz Rəsulunu hidayət və haqq dinlə göndərən Odur**”. [2]

Burada hidayət faydalı elm, haqq din isə saleh əməl mənasındadır. Allah Öz Rəsulunu Onun izini ilə itaət olunsun deyə göndərmişdir.

Allah-Taala belə buyurur:
“**Biz hər bir elçini, Allahın izni ilə məhz itaət edilsin deyə göndərdik**”. [3]
Allah Nəbisi ona tabe olaq deyə bizə əmr edib və belə buyurub: “**Məni necə namaz qılan gördünüzsə, o cür namaz qılın**”. [4]
Həmçinin belə buyurub: “**Həccin əhkamlarını məndən götürün**”.[5] Həmçinin belə deyib: “**Mənim sünnətimdən üz çevirən məndən deyildir**”.[6] Deməli necə əmr olunubsa, Allaha o cür ibadət etməlisən.

Allah belə buyurur:
“**(Ya Rəsulum!) Sənə əmr edildiyi kimi doğru yolda ol. Səninlə birlikdə tövbə edənlər də doğru yolda olsunlar**”. [7]

---

1. “Zariyat” surəsi, 56-cı ayə.
2. “Saff” surəsi, 9-cu ayə.
3. “Nisa” surəsi, 64-cü ayə.
4. “Səhih əl-Buxari”, 6008.
5. “Səhih Muslim”, 1401.
6. “Səhih əl-Buxari”, 5063. “Səhih Muslim”, 1401.
7. “Hud” surəsi, 112-ci ayə.

Buna görə də ibadət onun sünnəti üzərində olmalıdır. Kim Allaha Onun Rəsulunun sünnətinə uyğun olmayan bir şəkildə ibadət edərsə, Allah o kəsdən ibadəti qəbul etməz. Çünki dəlil olaraq Allah belə buyurur:

“**Hansınızın daha yaxşı əməl sahibi olduğunu sınamaq üçün ölümü və həyatı yaradan Odur**”. [8]

Yaxşı əməl xalis Allah üçün və Peyğəmbərin sünnəsinə müvafiq olan əməldir. Peyğəmbər ﷺ demişdir: “**Kim bizim bu işimizə ondan olmayan bir yeniliyi gətirərsə, o rədd olunar**”.[9] “Rədd olunar”, yəni bu əməl sahibinin üzünə geri çevrilər. Çox çalışıb əməl etsə belə, Peyğəmbərin sünnəti üzərinə müvafiq olmazsa, əməli ondan qəbul olunmaz.

8. “Mülk” surəsi, 2-ci ayə

9. “Səhih əl-Buxari”, 2697. “Səhih Muslim”, 1718.

# Onuncu məsələ

## Səhabələrin yoluna tabe olmaq

Allah Öz Kitabında buyurur:

**"Hər kəs özünə doğru yol bəlli olduqdan sonra Peyğəmbərə qarşı çıxıb möminlərin yolundan başqa bir yolla gedərsə, onu üz tutduğu yola yönəldər və Cəhənnəmə giriftar edərik. Ora nə pis dönüş yeridir".** [1]

Peyğəmbərə ﷺ qarşı çıxmaq, yəni Peyğəmbərə ﷺ muxalif olmaq deməkdir. Beləcə, Peyğəmbər ﷺ bir tərəfdə, ona müxalif olan isə digər tərəfdə olur. "Möminlərin yolundan başqa bir yolla gedərsə" ayəsindəki möminlər səhabələrdir. Çünki Quran nazil olduqda mövcud olan möminlər səhabələr idi. Deməli ayənin mənası belə olur ki, kim Peyğəmbərə və onun səhabələrinin yoluna müxalif olarsa, onun cəzası ayənin sonunda qeyd olunduğu kimi olacaqdır "Cəhənnəmə giriftar edərik. Ora nə pis dönüş yeridir".

Səhabələrin yoluna müxalif olmaq yüngül bir əməl deyil. Çünki onların yolu Peyğəmbərin ﷺ sünnəsini və hidayət yolunu əməli cəhətdən tətbiq etməkdir. Allah Rəsulu ﷺ belə buyurmuşdur: **"İsrail övladları yetmiş iki firqəyə bölünmüşdür. Ümmətim isə yetmiş üç firqəyə bölünəcəkdir. Birindən başqa hamısı cəhənnəmdədir. Dedilər ki, o bir firqə hansıdır ey Allahın Rəsulu? O ﷺ belə dedi: "Mənim və səhabələrimin yolu üzərində olan firqə".** [2]

Allah Rəsulu ﷺ "Ümmətim yetmiş üç firqəyə bölünəcəkdir" deyəndə səhabələr həlak olanlar haqqında soruşmadılar, yalnız nicat tapan firqənin hansı firqə olduğunu soruşdular. Allah Rəsulu ﷺ isə belə dedi: "Mənim və səhabələrimin yolu üzərində olan firqə". Allah Rəsulu ﷺ bildirdi ki, nicat tapan firqənin onun ﷺ və səhabələrinin yoluna tabe olması labüddür.

---

1. "Nisa" surəsi, 115-ci ayə.
2. "Sünən ət-Tirmizi", 2641.

Allah Rəsulu ﷺ belə deyib: “**Sizə təqvanı və (hakim) həbəşi qul olsa da, onu eşidib, ona itaət etməyi tövsiyə edirəm. Məndən sonra yaşayanlarınız çoxlu ixtilaflar görəcəkdir. Sizə sünnəmə və hidayet yolu üzərində olan rəşidi xəlifələrimin yoluna tabe olmağı tövsiyə edirəm. O yola sarılın və azı dişlərinizlə möhkəm yapışın. Sizlərə yeniliklərdən çəkinməyi əmr edirəm. Çünki, hər bir yenilik bidətdir və hər bir bidət zəlalətdir**”. [3]

Allah Rəsulu: “azı dişlərinizlə möhkəm yapışın” deməklə sünnədən möhkəm bir şəkildə sarılmağa təşviq edir. Kim Allahın kitabı və Peyğəmbərin sünnəsinə tabe olduğunu iddia edirsə, onlara səhabələrin başa düşdüyü kimi əməl etməsi vacibdir. Bir misal çəkim: bəzi insanlar hər il Peyğəmbərin ﷺ mövludunu qeyd edirlər. Onlardan soruşanda ki, “Səhabələr Peyğəmbərin mövludunu keçiriblərmi?”, onlar cavab verir ki, “Biz Peyğəmbəri sevirik”. Bu zaman onlara belə deyilir: “Siz Peyğəmbəri ﷺ səhabələrdən çox sevirsiniz?” Bizə əmr olunub ki, onların etdiyi kimi edək. Onların getdiyi yola, mənhəclərinə tabe olaq. Necə ki Allah Rəsulu ﷺ buyurmuşdur:

“**Sizə sünnəmə və hidayət yolu üzərində olan rəşidi xəlifələrimin yoluna tabe olmağı tövsiyə edirəm**”. Həmçinin belə buyurub: “**Məndən sonra Əbu Bəkr və Ömərə tabe olun**”. [4]

Səhabələr peyğəmbərlərdən sonra ən xeyirli bəşərdir. Necə ki, Allah-Taala belə buyurur: “**Siz insanlar üçün üzə çıxarılmış ən xeyirli ümmətsiniz; (onlara) yaxşı işlər görməyi əmr edib, pis əməlləri qadağan edir və Allaha iman gətirirsiniz**”. [5]

Bu ayəyə ilk olaraq səhabələr daxildirlər. Çünki Quran nazil olduqda möminlər yalnız onlar idilər. Allah Rəsulu ﷺ belə buyurmuşdur: “**Ən xeyli insanlar mənim əsrimdə olanlardır. Sonra onlardan ardınca gələnlər. Sonra onlardan ardınca gələnlər**”. [6]

---

3. “Müsnəd Əhməd”, 17144. “Sünən Əbu Davud”, 4607.
4. “Sünən ət-Tirmizi”, 3662. “Müsnəd Əhməd”, 23245.
5. “Ali-İmran” surəsi, 110-cu ayə.
6. “Səhih əl-Buxari”, 2652. “Səhih Muslim”, 2533.

Allah şahidlik etdi ki, onlar ən xeyirli ümmətdir. Həmçinin peyğəmbərlərin sonuncusu onların ən xeyli insanlar olduğuna şahidlik etmişdir.

Səhabələr Peyğəmbərin ﷺ sünnəsini ən doğru şəkildə tətbiq edirdilər. Bəzən ümumi əmr gələ və bəzi insanlar bunu mütləq şəkildə tətbiq etmək lazım olduğunu başa düşə bilərlər. Bu zaman onlara belə deyilər: "Səhabələr bu əmri sizin etdiyiniz kimi başa düşüblər?"

Buna görə də bir çox hallarda Allah və Rəsulunun məqsədini başa düşmək üçün səhabələrin tətbiqinə nəzər yetirməyə ehtiyacımız var. Deməli hər bir müsəlmanın öz həyatında bu 10 məsələyə ehtiyacı var. Xülasə olaraq biz inanmalıyıq ki, Allah mövcuddur, O, Əvvəl və Axır, Zahir və Batindir. O, aləmlərin Rəbbi, Xaliq, Malik və bütün işləri idarə edəndir. İbadətə layiq olan haqq ilahdır və biz yalnız ona ibadət etməliyik. İbadətlərdə ixlaslı olmalı və heç kəsi Ona şərik qoşmamalıyıq. Həmçinin Allahdan başqa ibadət olunan tağutu inkar etməyimiz də vacibdir. Bizə vacibdir ki, muvahhid müsəlmanları özümüzə dost edək, kafir müşriklərdən uzaq olaq.

Allahın bizə əmr etdiyi kimi Ona ibadət etmək, Rəsuluna tabe olmaq, ümmətin sələfini, yəni səhabə və tabeinlərini örnək götürmək bizə vacibdir.

Allah onlardan razı olsun, Öz minnəti, rəhməti və lütfü ilə bizləri onlara qovuşdursun.

Əvvəldə də, axırda da, zahirdə də, batində də Allaha həmd olsun.
Peyğəmbərimiz Muhəmmədə, onun ailəsinə və səhabələrinə Allahın salavatı və salamı olsun.